# ÇİNGİZ ÖMRÜNÜN POETİK XRONİKASI

*(Əvvəli ötən saylarımızda)*

Əsərin epik ruhu hadisələrin gedişinə uyğun olaraq müəllifi axıracan izləyir. Müəllif həyat hadisələrinə münasibətini hadisələrin yaratdığı ovqat əsasında bildirir.

Hər bir qələm əhli, söz adamı həyatın zərbələri altında müəyyən ağrı daşıyıcısı olur və bu zaman istər-istəməz həyatın gəldi-gedərliyi, Allahın qurduğu nizamı dağıtmaq istəyində olan, hər halda insan adı daşıyan məxluqlara hansısa bir tərəfdən rəy bildirməli olur. Şübhəsiz, belə məqamlarda ölüm də, həyat da, yeni doğuluş da, müəllifi düşündürür. Axı Yer planeti insan üçün dünya evidir. Bəs onda nə üçün hər kəsə yer çatacağı halda insanlar bu dünya evinin üstündə çəkişirlər.

Yüz min illərdir ki, insanlar arasında "mənim-sənin" davası gedir, amma hələ də hər kəs öz payına qane olmur. Və nəticədə qanlı savaşlar baş verir. Yerin gülzarlıq ola biləcək, bu dünyanın cənnəti kimi görünə biləcək əraziləri bombalanır. İnsan zəhməti ilə başa gəlmiş gözəlliklər yerlə-yeksan edilir.

Hər bir şairin missiyası dünyanın ədalətsizliklərinə qarşı sözü ilə mübarizə aparmaqdır. Sənətkar da öz sözünü səfərbər edərək ölüm gətirən şeytan xislətli insanlara qarşı savaşmalı olur.

Məlahət Soltanqızı da əslində dünyada baş verən savaşların nəticəsində axıdılan nahaq qanları laqeydliklə seyr edə bilmir. Mütləq öz münasibətini bildirmək istəyir. Nəticədə söz nizamla düzülərək bir xeyirxahlıq sipəri yaradır.

*Ölüm ayrılıqdı,*
*Ölüm həsrətdi*
*Qartal qaya başında,*
*gözəl bir ömür sürür.*
*Qərib qanadlarını*
*gəzir bütün dünyanı.*
*Hər gün neçə can alır,*
*neçə heyvan ovlayır.*
*Dimdikləri, caynağı,*
*onun yaşam qaynağı.*
*Hər gün günəş doğarkən,*
*o qaçır ov dalınca*
*Allah belə buyurub,*
*təbiətin hökmüdür.*
*Birinin yaşaması*
*o birinin ölmüdür.*
*Yaşamaq gözəldirsə,*
*həyat mübarizədir.*

Şübhəsiz, bu yazılan misraların mahiyyətinə varmalı olsaq, bəşər nəslinin ümumi qənaətlərini də burada görərik. Yəni gözəl yaşamaq istəyirsənsə, gərək ardıcıl və qətiyyətli mübarizə aparmağı da bacarasan. Onu da demək lazımdır ki, müəllif əsərdə bütün məqamlar boyu öz qəhrəmanlarının yanında dayanır. Azərbaycan həqiqətləri uğrunda döyüşən igidlərin, əsgərlərin fikir və düşüncələrini özünün ümumi nəzər-diqqəti ilə birləşdirir, qovuşdurur. Və nəticədə biz müəllifin özünü də Azərbaycan əsgəri kimi görürük. Necə ki, həmin qəhrəmanları Azərbaycan ziyalılığının fikir daşıyıcısı kimi təsəvvür edirik.

Əlbəttə, əsər boyu ritorik suallar da var. Müəllif tez-tez soruşur ki, axı bu qanlar nə üçün tökülməlidi, bu savaşlar nəyə xidmət edir. Açıq suallardır, amma zaman-zaman hər kəsi düşündürəcək suallardır.

Onu da demək lazımdır ki, müəllif öz qəhrəmanlarından başqa mücərrəd obrazlara da tez-tez müraciət edir. Allah, zaman, tanrı, tale, bəxt... bu kimi obrazların yaratdığı ovqatla dünya nizamının mahiyyətini açmağa çalışır.

Hökmdarlar, tarixi silah gücünə yazmaq istəyənlər onsuz da son nəticədə həmişə ittiham olunurlar. Azərbaycan torpaqlarını qəsb edib Xocalı qətliamını törədənlər Azərbaycan ordusunun gücü ilə cəzalandılar. Amma onların son mühakimələri, sərt cəzaları gələcək tarixin ixtiyarındadı.

Hələlik 90-cı illərdə Azərbaycanın qarşılaşdığı haqsızlıq dünyanın gözləri önündə baş verir. Müəllif bu mənzərənin sual doğuran tərəflərini şeirə gətirdiyi hissləri ilə, duyğuları ilə cavablandırmağa çalışır:

*Bu döyüş, bu savaş*
*kimlərə gərək.*
*Biri silah açır, o biri ölür*
*Birinin ölümüylə,*
*bütöv bir nəsil*
*Matəmlərə göz yaşına bürünür.*
*Kimlərə gərəkdir*
*bu qədər silah.*
*Dil tapıb yaşamaq*
*belə çətinmi?*
*Analar ağlamasın*
*qoy axmasın göz yaşı.*
*Dünyanın hər yerində*
*kəsin, kəsin savaşı!*

Müəllif sanki hökm edir, əmr verir. O hərbi güc sahibi deyil, onun əmrləri də fiziki mahiyyət daşımır. Mənəvi mahiyyət daşıyır. O, özünün yazıçılıq missiyasından istifadə ilə hökm verir. Axı bütün zamanlarda ən qanlı savaşların sonu da bəşərin sağlam düşüncəsinin qələbəsi ilə qurtarır.

Ziyalı sözü, şair sözü hər vaxt xeyirlə şərin mübarizəsində xeyirin tərəfində olur.

Hətta böyük Nizaminin məşhur "Xeyir və şər" dastanını da burada xatırlamaq yerinə düşər. Böyük sənətkar xeyirin məramı ilə şərin niyyətini qarşılaşdırır. Birində ziyan var, birində dərd var, bəla var. Digərində isə məram aydındır. O insanlığa hörmət və ehtiram duyğuları ilə yaşayır. Demək, şair, sənətkar dünyanı idarə edəcək gücün əsasını xeyirdə görür. Bu missiyanı biz Məlahət Soltanqızının düşüncələrində də görürük:

*Hakimiyyət nədir ki...*
*Hakimiyyət uğrunda*
*insanlar tapdalanır.*
*Tarix qiymət verir, hökmdarlara,*
*Kimi məhəbbətlə,*
*kimi nifrətlə*
*Zaman-zaman xatırlanır.*
*Zaman hər bir sirrin açır üstünü*
*Uçurduq, dağıtdıq*
*haqsızların büstünü,*
*Allahın səbri çoxdur*
*Haqq, ədalət alacaqdır,*
*mütləq bir gün öz yerini.*
*Qıracaqdır zalımların belini.*

Belə bir fikir də var ki, tarix dözümlüdür, hətta tarixi Allahın səbri də adlandırırlar. Yəni dözüm və səbir son nəticədə həqiqətləri ortaya gətirə bilir. Əgər həqiqətlər heç vaxt ortaya gəlməyəcəksə, onda dünyanı işıqlandıran günəşin heç bir faydası olmayacaq. Hətta gündüzün özündə belə dünya qaranlıq görünəcək. Bir anlığa düşünək ki, işıqdan məhrum olan hansısa bir planetdə həyat varmı? Əgər belədirsə, biz hamımız əgər insan olduğumuzu biliriksə, yer üzünü, Yer planetini işıqdan məhrum etməməliyik.

Müəllif bəzən dərin sel kimi gələn gücü qarşısında zəif olduğunu da etiraf edir. O, hər cür ixtiyar sahibi deyil. Onun gücü də müəyyən həddə qədərdir. Çünki dünyanın işıqlı, yaxşı adamları həqiqəti görüb təsdiq eləsələr də, yenə də dünyada insanlığa yönəlik cinayətlər baş verir. İblis sanki ayağını dünya həqiqətlərinin üstünə qoyur, onu tapdayır və Hüseyn Cavidsayağı desək, qəhqəhə ilə gülür.

Müəllif üçün ölümlərin fərqi var. Axı nə üçün insanlar tamahın qurbanı olub vaxtsız ölümlərə düçar olmalıdırlar. Bu yerdə müəllifin məramını ifadə edən misralar kifayət qədər dolğundur və təsiredicidir:



*Əgər məndə olsaydı cümlə-ixtiyar*
*Müharibə kəlməsini,*
*lüğətlərdən silərdim.*
*Ucuz ölümlərə qoyulardı son.*
*Yersiz ağrımazdı insanın başı.*

Beləliklə, müəllif həyat, cəmiyyət, tale, bəxt haqqında qanadlanıb sözə çevrilən duyğularının arasında dayanır və təzədən öz qəhrəmanlarının yanında görünür.

Məlahət Soltanqızının qəhrəmanları real insanlardır. Bu gün əfsanəvi qəhrəman kimi xatırlanan Çingiz Fuadoğlu da insan övladıdır. Onun da atasının, anasının, doğmalarının bir zaman övlad istəyi olub. Bir sevginin bəhrəsi kimi Çingiz dünyaya gəlib.

O, hərdən qayğılarını bölüşməli olur. Doğmaları ilə danışır. Ata-oğul söhbətinin göydən ölüm yağışı yağdığı bir zamanda necə, hansı təəssüratla davam etdiyini duymaq üçün əsərdəki həyati rənglərlə verilmiş parçanı oxumaq bəs eləyər:

*Bir-iki gün öncə*
*baş çəkmiş doğmalarla*
*Körpəcə oğlunu qoynuna almış*
*Ata ocağında qərib quş kimi,*
*Hər yana, hər şeyə bir nəzər salmış*
*Öpüb anasının ağ saçlarından,*
*"Özünə yaxşı bax" - söylədi ona*
*Çingiz bir yaz axşamı*
*oturdu atasıyla*
*Ata-oğul danışdılar...*
*Fikirlərin paylaşdılar...*
*-Çingiz, oralarda nədi vəziyyət*
*Sən bilən çox çəkər bu qırğın, savaş? -*
*Çingiz çeynəyərək dodaqlarını:*
*- Bildiyim bir şey var,*
*inan ay ata,*
*El bir olsa, yumruq kimi yığılsa,*
*Tezliklə bitəcək bu qanlı savaş*
*Bizə ordu gərəkdir,*
*səfərbərlik gərəkdi,*
*Torpaqlar düşməndən alınmalıdır,*
*İsti-isti döyülməlidir dəmir.*
*-Yoxsa -*
*-Yoxsa, nə?...*
*Bitmədi, yarımçıq qaldı bu söhbət*
*Yarımçıq bir ömrün xatirəsi tək.*

Dialoqlar, ata-oğul arasındakı qarşılıqlı münasibət bu adamların təmkinindən xəbər verir. Onlar yaxşı bilirlər ki, tərəflərdən birinin hər an son nəfəsi gələ bilər. İnsan bədəni daşdan, dəmirdən deyil axı, hətta çovuyan bir güllə də insanı öldürməyə qadirdir. Bu həqiqətləri tərəflər dərk eləsə də, mərdanəlik göstərirlər. Qorxudan söhbət gedə bilməz. Elə bu münasibətin özü də bir ibrət məqamıdır.

İkinci Qarabağ savaşında müstəqillik dövrünün gəncləri gözlərini qırpmadan ölümün üstünə ona görə gedə bilirdilər ki, onlar vətən amalının candan nə qədər üstün olduğunu artıq dərk etmişdilər. Bu həqiqətləri müstəqillik dövrünün gənclərinə öyrədən qəhrəmanlardan biri də elə Çingiz idi. Onun xarakterindəki dönməzlik, xarakter, qorxmazlıq zaman-zaman sözə, sənətə çevrilmiş, oradan da duyğulara qovuşaraq yeni nəsil gəncliyin varlığına axmışdı. Zənnimcə, bu qürurlu duyğulardır. Xalq öz missiyasını kifayət qədər aydınlığı ilə dərk edirdi.

Çingizin həyat yolu gələcəkdə çoxlu filmlərin, epik əsərlərin, böyük poemaların mövzusu olacaq. Bir mənalı şəkildə onu da demək olar ki, elə əslində Məlahət Soltanqızının "Yarımçıq ömrün xatirəsi" poeması real mənzərələri ilə gələcək böyük işlərin mənəvi bazası olacaq.

Çingizin ailə ilə bağlı duyğulanmaları elə bil ki, vətənlə bağlı duyğulanmalardır:

*Atasıyla, anasıyla*
*sonuncu görüşdü bu,*
*Bağrına basdığı yeganə oğlu*
*Hələ balacaydı, dil açmamışdı*
*Onun süd qoxulu gül nəfəsindən*
*Çingiz ata olalı heç doymamışdı.*
*Son ayrılıq anında, beşiyə baxdı.*
*Ayrılmaq istəmirdi,*
*o, beşiyin başından,*
*Geyindi, hazırdı, getmək vaxtıdır,*
*Sağollaşdı, ayrıldı o ata ocağından,*
*Bu ayrılıq son ayrılıq,*
*Bu gedişin dönüşü yox...*

Bir sözlə, Çingizin hər gedişində bir dağ tərpənişi var. O, cəbhə bölgəsinə özbaşına getmirdi. Elə bil ki, onu çağıran dağların harayını eşidirdi. Bu haray idi onu döyüşə səsləyən.

Məlahət Soltanqızının "Yarımçıq ömrün xatirəsi" poeması hər birimizin yaddaşında bir Çingiz heykəli yaradır və biz bu heykəlin əzəməti ilə qürur duyuruq.

**(Davamı var)**

***Əli Rza XƏLƏFLİ***
**25.08.2022**